Valeri Sinelnikov

# Məqsədin gücü

## Arzu və istəkləri necə reallaşdırmalı

Tərcüməçi:
Gülnarə Bəkirova

qanun nəşriyyatı

Валерий Синельников

# Сила намерения

## Как реализовать свои мечты и желания

Kitabın dəyərini bilmək üçün müəllifini tanımalısınız. O, təcrübəli psixoloq və psixoterapevtdir. Effektiv müalicə üsulları minlərlə insanı sağlamlığa qovuşdurub. Həyat sevinci bəxş edən unikal metodikası vardır.

Əsərləri sizə instinktiv gücünüzü enerjiyə çevirməyi öyrədir. Öz problemlərinizdən baş çıxarır, stress və xəstəliyi birdəfəlik unudursunuz.

Bu kitab da eyni dərəcədə müalicəvi gücə malikdir. Pozitiv təsiri onu əlinizə götürdüyünüz andan başlayır.

**Валерий Синельников** **СИЛА НАМЕРЕНИЯ**
**Valeri Sinelnikov** **MƏQSƏDİN GÜCÜ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 160 səh.

Janr: non-fiction/özünüinkişaf
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 10.02.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcümə: | Gülnarə Bəkirova |
| Redaktor: | Əziz Rzazadə |
| Korrektor: | Ceyran Abbasova |
| Texniki redaktor: | Lalə Hüseyn |
| Mətn dizaynı: | Rahilə Şamilqızı |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

© Qanun Nəşriyyatı, 2015; 2019; 2022; 2024
© Валерий Синельников, 2007

ISBN 978-9952-38-110-8

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri «Müəlliflik hüququ və
əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu»na ziddir.

# İTHAF

Bu kitabı sevimli oğullarım Dmitriyə və Svetazora ithaf edirəm. Mənim çox gözəl bir Arzum var – sizi həyatın bütün sahələrində hər şeyə nail olmuş, güclü və sağlam görmək.

# TƏŞƏKKÜRLƏR

Mən, həmişə olduğu kimi, çoxsaylı pasiyentlərimə dərindən minnətdaram. Kitab üçün geniş materialı, şəxsən, onlar mənə təqdim ediblər. Onların sayəsində və onlarla birlikdə mən özüm də dəyişmişəm.

Kitabın çapa hazırlanmasına və texniki təchizata görə Anatoli Oleynikova öz təşəkkürümü bildirmək istəyirəm.

Məqsəd nə deməkdir? Onu necə düzgün başa düşməli və gündəlik həyatda ondan effektli şəkildə necə istifadə etməli? Şəxsi qüvvəni necə toplamalı? Həyatda öz məqsədlərinizə münasibətinizi dəyişməklə, güclü iradə sahibi olmaqla, həyatınızı parlaq və xoşbəxt etmək və digər başqa məsələlərlə bağlı suallara cavabı bu kitabda tapa bilərsiniz. Düşüncənin doktor tərəfindən işlənib-hazırlanmış yeni modeli, effektli müəllif metodikası və strategiyası sizə təkcə istədiyiniz arzuları real şəkildə gerçəkləşdirməyə deyil, eyni zamanda xoşagəlməz hadisələrdən qabaqcadan xəbərdar olmağa kömək edəcək. Siz iti təfəkkür, yüksək davranış və təmiz düşüncə sahibi olmağı öyrənəcək, mənfi emosiyalarla və mövhumatçılıqla vidalaşacaqsınız. Şəxsi yaradıcılıq potensialınızı aşkar edəcək və reallaşdıracaqsınız, ən böyük niyyətinizi yerinə yetirəcəksiniz.

# MÜQƏDDİMƏ

Hörmətli oxucu! Bir neçə il bundan öncə, həkimlik yoluna qədəm qoymaqla, mən insan psixikasının ucsuz-bucaqsız aləminə, düşüncəli və düşüncəsiz dərrakəyə cazibədar səyahətə başlamışam. Dəfələrlə özüm-özümə sual vermişəm: “İnsanlar özləri üçün problemləri və xəstəlikləri nədən ötrü yaradırlar? Həyatlarını dəyişmək üçün insanlara necə kömək etmək olar? İnsan həyatını necə sağlam, güclü və xoşbəxt etmək olar?” Bu yolda atdığım hər bir addımda qarşıma müxtəlif maneələr çıxmış və bitib tükənməyən xəzinələr açılmışdır. Tədricən bu dünyanın hansı qanunlar üzrə inkişaf etdiyini dərk etməyə başladım. Başa düşdüm ki, insanlar necə böyük gücə və enerjiyə sahib olduqlarını təsəvvürlərinə belə gətirmirlər. Və bu enerjinin böyük hissəsini onlar öz həyatlarında əzab və ağrıların yaranmasına sərf edirlər. Uzun illər sağlamlığı və xəstəliyi öyrənmişəm. İnsanlarla iş prosesində bütün mövcud olan müalicə metodlarını özündə birləşdirən yeni təbabət metodunu yaratmışam.

Bu barədə ilk kitabım olan “Öz xəstəliyini sev”də yazmışam. Sonradan başa düşdüm ki, bu modeldən

təkcə öz sağlamlığını yaxşılaşdırmaq üçün deyil, eyni zamanda həyatın münasibət, iş və pul kimi digər sahələrinin də harmonlaşdırılmasında istifadə etmək olar.

Mənim təsdiqlədiklərimin heç biri sübutsuz deyil. Bu modelin effektliliyi zamanın sınağından çıxıb. Bizlərdən hər bir kəs ona sahib ola və şəxsi həyatında bir çox problemləri həll edə bilər. Bizdən tələb olunan yeganə şey – dəyişikliklərə hazır olmaqdır. Əgər siz öz həyatınızda nəyisə dəyişmək istəyirsinizsə, onda bu kitabı oxuduqdan sonra dəyişikliklər baş verməyə başlayacaq.

Bu kitabda mən Məqsədin sehrinin strukturunu açıqlayıram. Amma bu söz sizi heç də qorxutmasın. Mən sizi cadugər və sehrbaz etmək niyyətində deyiləm, ona görə ki, siz artıq sehrbazsınız, ancaq bunu hiss etmirsiniz. Siz əlinizdə qara və ya ağ cadugərlik haqqında təlimat tutmamısınız. Bu kitab istənilən sehrin əsaslandığı qanunlar haqqındadır. Bu kitab düşüncələrin və Məqsədin gücü haqqındadır. Bunları əldə etməklə öz dünya modelinizi, həqiqətən, maraqlı edə bilərsiniz və həyatda çox effektli hərəkət etməyə başlayarsınız.

# KİTABLA NECƏ İŞLƏMƏLİ

Bu kitabdakı hər bir başlıq elə bir şəkildə yazılıb ki, düşüncənin daha dərin, daha sağlam və uyğun səviyyəsinə təsir etsin və insanda təsir hissi oyatsın. Kitabın oxunmasından faydalanmaq şübhəsizdir. Bunu həm görə, həm də hiss edə bilərsiniz. Bu təsdiqim sizə ciddi görünməyə bilər, amma kitabımın oxucuları belə deyirlər. Kitabı oxuduqdan sonra onların bir çoxunda fiziki və psixoloji hissiyyat yaxşılaşmış, köhnə ağrılar yox olmuş, şəxsi həyatlarında xoşagələn dəyişikliklər baş vermişdir.

Mənim kitabımdan həyat məqsədlərinizin, müqəddəs arzularınızın yaradılmasında və həyata keçirilməsində təlimat kimi istifadə edin. Qələmlə, kağızla və əlbəttə ki, dözümlə silahlanın. Hər bir təlimat kimi, bu kitabı da tam başa düşənə qədər oxuyun. Eyni zamanda əldə etdiklərinizin hamısını təcrübədə yoxlayın.

Kitabda çoxlu praktik tapşırıqlar var. Sizə məsləhətim: növbəti fasilə keçməzdən əvvəl bu tapşırıqları yerinə yetirin. Tələsməyin! Sizə lazım olan hər şeyi əldə edəcəksiniz.

Bu avtomobili idarə etməyə bənzəyir. Əvvəlcə siz qaydaları, yol işarələrini, avtomobilin quruluşunu öyrənirsiniz. Yəni nəzəriyyəni. Sonra isə avtomobilin sükanı arxasında əyləşərək aldığınız yeni bilikləri təcrübədə möhkəmləndirirsiniz. Yaxşı olar ki, yanınızda təcrübəli təlimatçı olsun, bu zaman siz az səhv edəcəksiniz. Aydındır ki, təcrübəniz nə qədər çox olarsa, idarəetməni də bir o qədər tez mənimsəyəcəksiniz. Siz hətta bir müddətdən sonra peşəkara çevrilərək başqa adamları da öyrədə bilərsiniz. Bu zaman sizin öz stiliniz yaranacaq.

İstəyirəm ki, kitabım bir müddət sizin həyat yolunuzda özünəməxsus təlimatçıya və əgər istəyirsinizsə, Kainatın ucsuz-bucaqsız sahələrində yolgöstərənə çevrilsin. Ola bilər ki, bu kitab sizə sevinc bəxş edə biləcək unikal həyat yolunu tapmaqda kömək edəcək. Tanrı köməkçiniz olsun!

Sizi əmin edə bilərəm ki, bu kitabda yazılanları təcrübədə tətbiq etsəniz, o zaman həyatınız yaxşı tərəfə dəyişəcək.

Uğurlar!

# BÖYÜK KİMYAGƏR

Xristian zirzəminin uzun, rütubətli və qaranlıq dəhlizi ilə gedirdi. Rahib paltarı geymiş iki adam öndən və arxadan onu müşayiət edirdi. Məşəllərin bərq vuran işığı divarlarda qəribə kölgələr yaradırdı. Addım səsləri qulaqlarda əks olunurdu. Sanki o addımlarını daş plitələr üzərində nə qədər yavaş qoymağa çalışırdısa, addım səsləri bir o qədər bərkdən eşidilirdi.

Qəribədir ki, Xristian qorxu hissi keçirmirdi. İndi onun əsas duyğusu – hər şeyi bilmək idi. O haradadır? Bu adamlar onu hara aparır? Bu gün səhər onlar bazarda ona yaxınlaşdılar və dedilər:

– Böyük Magistr səni gözləyir!

Xristian sual vermək istəyirdi, lakin yaşca böyük görünən rahib işarə ilə ona susmasının daha yaxşı olduğunu bildirdi.

– Arxamızca gəl, – dedi.

Onlar uzun müddət onu şəhərin küçələri ilə apardılar, açıq şəkildə onu çaşdırmaq istəyirdilər. Bəlkə də kiminsə onları izləyib-izləmədiyini yoxlayırdılar. Nəhayət, onlar hansısa köhnə bir binaya yaxınlaşdılar və

Xristianın gözlərini bağladılar. O, müqavimət göstərmirdi və qaçmağa çalışmırdı. Onun daxilində bir sakitlik hökm sürürdü. Xristian öz duyğularına inanırdı.

O, sarğının altından nəyəsə baxmaq fikrindən vaz keçdi, çünki sarğı gözlərini möhkəm tutmuşdu. Birdən sanki palıd ağacından düzəlmiş ağır bir şeyin yerindən tərpəndiyini eşidə bildi. Amma dəqiq bilirdi ki, divarda heç bir qapı yoxdur. Bu hər şeydən çox gizli girişin açılmasına oxşayırdı. Rahiblərdən biri qabağa keçdi, arxada duran isə ehtiyatla onu itələyərək getmək lazım olduğunu başa saldı. Bir neçə addım atandan sonra Xristian üzünə dəyən soyuq və rütubətli zirzəmi havasını hiss etdi. Arxadan yenə də həmin qəribə səs gəldi. “Girişi bağladılar” – deyə düşündü.

Sarğını açdılar, lakin qaranlıqda heç nə görmək mümkün deyildi. Birinci rahib qığılcım yaradaraq iki məşəli yandırdı. Məşəllərdən birini özündə saxladı və ikincisini yoldaşına verdi. Zirzəminin dəhlizi ilə hərəkət başladı. Uzun müddət getdilər. O özü-özünə sual verdi: “Onu bura gətirən nədir?” Bunun işgəncə üçün edilmədiyinə əmin idi. Bəs onda nə üçün bu adamların marağına səbəb olmuşdu? Xristian hələ özünə düşmən qazanmağa imkan tapa bilməmişdi. Və onun heç bir sirri yox idi.

O, universitetdə yaxşı oxuyurdu və həkim olmaq arzusunda idi.

Buna səbəb ola biləcək yeganə şey – dünən ət dükanında baş verən hadisə ola bilərdi. Xristian heç cürə

düşünə bilməzdi ki, bu hadisə onun həyatında çevrilişə səbəb ola bilər.

Həmin gün hər şey öz yolunda gedirdi. Universitetdəki məşğələlərindən sonra o, adəti üzrə, qəssabın dükanına yollandı. Amma ət almaq üçün yox. Təqaüdü buna imkan vermirdi. Latın dilindən tərcümə etməklə qazandığı azacıq pulu isə kitab almağa xərcləyirdi.

Onu bura cəzb edən ürək məsələsi idi. Qəssabın Patrisiya adlı gözəl bir qızı vardı. Buna görə də o artıq bir həftə idi ki, məşğələlərdən sonra ət dükanına gəlirdi.

Xristian içəri daxil olanda dükan sahibi onu çağırdı:

– Cavan oğlan, siz hələ bura çox gəlmək fikrindəsiniz? Mən hələ dünən sizə aydın və başa düşüləcək tərzdə demişdim ki, siz qızıma uyğun gələn adam deyilsiniz. O, başqasına məxsusdur. Artıq onun üçün varlı nişanlı tapmışam. Sizdən fərqli olaraq, onun pul kisəsində nə isə var.

– Mən isə məşhur həkim olacağam və varlanacağam, – Xristian cavab verdi.

– Nə vaxt olarsan, onda da gələrsən, – qəssab etiraz etməyə tələsirmiş kimi cavab verdi.

Xristian küçəyə çıxdı. Gözləri yaşaracaq dərəcədə incimişdi. Nə üçün Allah ona var-dövlət verməmişdi? Əgər o, varlı olsaydı qəssab onunla başqa cür danışardı. Yəni Patrisiyanın qəlbinə yol dolu kisədən keçir? Hansısa bir yol olmalıdır, həm də qız ona qarşı açıq-aşkar laqeyd deyil.

Elə bu anda küçənin sonunda hay-küy eşidildi. Xristian ora baxdı və gördü ki, irəlidə bir kişi qaçır,

arxasınca isə dominikan ordenindən olan adamlar gəlir. Kişi orta yaşlarında olmasına baxmayaraq, çox iti qaçırdı. Hərəkətlərində güc-qüvvət hiss olunurdu. Ona çatmaq demək olar ki, mümkün deyildi. Bu zaman küçənin digər tərəfindən dominikanlıların daha bir qrupu göründü. Kişi tələyə düşmüşdü. Onun getməyə yeri qalmamışdı.

Adam qəssabın dükanının yanına çatdı və Xristian özünü təhlükəyə atması barədə düşünmədən onun köynəyinin qolundan dartaraq dükanın içinə dartdı. O, dükandakı gizli çıxışın harada olduğunu bilirdi. Xristian və naməlum adam dükan sahibinin hiddətlənməsinə baxmayaraq, ətlə dolu piştaxtaların üstündən keçərək ehtiyat çıxışdan başqa küçəyə qaçdı. Bu tərəfdə təqibdən asanlıqla gizlənmək olardı. Küçələrin yaratdığı labirintlərdən keçərək onlar bazar meydanına çıxdılar və qələbəliyə qarışdılar. Xristian həmişə irəlidə qaçır və yalnız naməlum adamın arxasınca gəlib-gəlmədiyini öyrənmək üçün hərdən geri baxırdı. Xristian üçün təəccüblüsü o idi ki, həmin adam nəinki ona çatırdı, hərdən onu da ötüb keçirdi.

Onlar camaata qarışan kimi Xristian naməlum adamı nəzərindən qaçırdı. Onu tapmağa cəhd göstərərək ətrafa boylansa da, cəhdləri boşa çıxdı.

Bu adam qəflətən peyda olduğu kimi, qəflətən də yoxa çıxdı.

...Görünür ki, Xristianın zirzəminin dəhlizi ilə səyahəti başa çatdı. İrəlidə qapı görünürdü. Qabaqda